**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# POSTMODERNİZM ƏDƏBİYYATINDA MÜƏLLİF VƏ MÜƏLLİF MÖVQEYİ PROBLEMİ (XX-XXI əsrlərin qovşağında rus və Azərbaycan ədəbiyyatı materialları əsasında)

İxtisaslar: 5718.01 – Dünya ədəbiyyatı (rus ədəbiyyatı)
5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Könül Maarif qızı Sadiyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Bakı Slavyan Universitetinin Rus ədəbiyyatı tarixi kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
**Sahibə Əli qızı Qafarova**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, dosent
**Ramiz Hüseyn oğlu Bağırov**

filologiya elmləri doktoru, dosent
**Cavanşir Əziz oğlu Əliyev**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Dürdanə Fərman qızı Hümbətova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Slavyan Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.13 Dissertasiya şurasının bazasında BFD 2.13/1 Birdəfəlik dissertasiya şurası

Birdəfəlik dissertasiya
şurasının sədri: filologiya elmləri doktoru, professor
______________ **Rəhilə Hüseyn qızı Quliyeva**

Birdəfəlik dissertasiya
şurasının elmi katibi: filologiya elmləri doktoru, professor
______________ **İlyas Həmidulla oğlu Həmidov**

Birdəfəlik elmi seminarın
sədri: filologiya elmləri doktoru, professor
______________ **Bella Sirac qızı Musayeva**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Qloballaşma dövründə dünyanın fərqli regionlarında oxşar mədəni və ədəbi hadisələrin araşdırılması çox böyük əhəmiyyət kəsb edir. Belə hadisələrin biri də postmodernizmdir. Postmodernizm dedikdə son onilliklər ərzində sivilizasiyanın qlobal durumu, "müasirlik" məfhumun dəyişməsi, təkamülün böhrana uğraması nəzərdə tutulur.

Başqa ədəbi cərəyanlar kimi postmodernizmin də meydana gəlməsi bir sıra tarixi səbəblərlə şərtlənirdi. Postmodernizmin yarandığı vaxtda artıq hamıya aydın idi ki, bəşəriyyət özünü məhv etməmək üçün yeni mentalitet yaratmalıdır. Postmodernizmdə çoxəsrlik təcrübə yenidən dərk edilir, yeni şəkildə mənalandırılır və insanları, bəşəriyyəti bir-biri ilə əlaqələndirən dəyərlər üzə çıxarılır. Eyni zamanda həmin dəyişmə, əvəz olunma postmodernistlərin kəşfi deyildi. Bu cür fikirlər, mühakimələr əvvəllər də F.Nitsşe, L.Şestov, K.Yaspersin əsərlərində sezilirdi. Lakin, XX əsrin sonunda postmodernizm artıq müstəqil cərəyan kimi formalaşır və bir çox "qeyri-adi", "gözlənilməz" xüsusiyyətləri ilə əvvəlki ədəbi cərəyanlardan fərqlənirdi.

Postmodernizm ilk baxışdan nizamsız bir fenomen kimi görünür, çünki burada qadağan olunmuş üsullar mövcud deyil, burada istehza, yumor və satira, hətta bəzən antiestetik əlamətlər, "oyunbazlıqlar" yer alır, yəni ən müxtəlif vasitələrin tətbiqinə heç bir məhdudiyyət qoyulmur. Bu baxımdan postmodernizmdə müəllif və müəllif mövqeyinin tədqiq edilməsi də xüsusi əhəmiyyət kəsb edir və burada "müəllif" anlayışı özünü yeni formada nümayiş etdirir. Ümumiyyətlə, ədəbi yaradıcılıq meydana gəldiyi gündən müəllif mövqeyi problemi həmişə ən maraqlı, çoxşaxəli və ən mürəkkəb problemlərdən biri olmuşdur. Başqa ədəbi cərəyanlarda müəllif əsərin konsepsiyasının daşıyıcısı kimi çıxış edir, əsər isə müəllifin müəyyən bir hadisəyə yaxud qəhrəmana münasibətinin, problemlə bağlı mövqeyinin ifadəsidir.

Postmodernizmdə əsərin müəllifi postmodernizmin yaratdığı mətn və məzmun məkanında, artıq heç kəsin dərk etmədiyi məqamları duymağa qadirdir. Nəticədə əsər müəllifin şəxsi mövqeyi ilə yanaşı, əsərin daxilində nitqin digər subyektləri üçün əlçatmaz olan mətləbləri ifadə edir.

Postmodernizm ədəbiyyatında müəllif və müəllif mövqeyi problemi bir qədər fərqli şəkildə üzə çıxır, bu da postmodernizm cərəyanının xüsusiyyətləri ilə bağlıdır. Postmodernist ədəbiyyatının səciyyəvi xüsusiyyətlərini nəzərə almaqla müəllif obrazı və müəllif mövqeyi məsələsi çox maraqlı və aktual görünür. Bu baxımdan Azərbaycan və rus postmodernist ədəbiyyatında, xüsusən K.Abdullanın və B.Yevseyevin yaradıcılığında həmin problemlərin həll olunması yollarının araşdırılması xüsusilə maraqlıdır. Hər iki yazıçının əsərlərinin postmodernizm cərəyanına aid olması, bu cərəyanın tələbləri əsasında sırf milli ədəbi əsərlərdə müasirliyin və tarixi keçmişin vəhdətini yaratması, milli və qlobal problemləri həll etmək cəhdləri sözsüz ki, son dərəcə aktual və maraqlı məsələlər kimi qiymətləndirilməlidir. İki ədibin yaradıcılığında bir ümumi cəhət nəzərə çarpır. Belə ki, K.Abdulla da, B.Yevseyev də öz yaradıcılığında eksperimentlər aparmaqdan çəkinmir və hər iki yazıçı yaratdığı əsərlərdə qaldırdığı problemlərə öz xüsusi yanaşması ilə seçilir.

Müasir dövrdə, bəzi tədqiqtçıların fikrincə postmodernist ədəbiyyatda "müəllifin ölümü" adlanan hadisə mövcuddur. R.Bart hesab edir ki, yeni mətnlərdə əsas rolu yazıçı yox, oxucu oynayır və oxucu mətni özü istədiyi kimi qavrayıb, izah edə bilər, çünki oxucu ünsiyyəti mətnlə qurur. K.Abdullanın və B.Yevseyevin yaradıcılığı bu baxımdan xüsusi fenomendir. Kamal Abdullanın və Boris Yevseyevin əsərlərinin müqayisəli təhlili rus və Azərbaycan postmodernizmində milli cəhətləri araşdırıb, müəllif və müəllif mövqeyinin hansı vasitələrlə reallaşdırmasını müəyyən etməyə imkan verir.

Postmodernist ədəbiyyatı artıq yarandığı dövrdən tədqiqatçıların diqqətini cəlb edir. Onun öyrənilmə dərəcəsinin əsas göstəricisi də Azərbaycanda postmodernist ədəbiyyatı üzrə müdafiə olunmuş dissertasiyalardan və elmi-monoqrafik tədqiqatlardan, çoxsaylı elmi məqalələrdən ibarətdir. Həmin tədqiqatların arasında Rusiyada postmodernist hərəkatın nəzəriyyəçilərinin – V.Kuritsinin, İ.İlyinin, İ.Nikitinanın, M.Lipovetskinin, A.F.Losevin, D.Zatonskinin, M.Epşteynin, L.Andreyevin, Y.Kristevanın, Qərbi Avropada J.Derridanın, J.Liotarın, U.Ekonun əsərləri xüsusilə qeyd edilməlidir . Ondan başqa tədqiqatda A.Evgemer, D.Viko, A.Şellinq, V.Müller,

K.Freyzer, K.Levi-Stross, R.Reqlan, A.Berqson, M.Baxtin, N.Berdyayev, E.M.Malinovski, R.Levi-Brül, A.Kassirer, Z.Freyd, K.Yunq kimi filosofların elmi araşdırmalarına da istinad edilir. Azərbaycanda postmodernist ədəbiyyatının tədqiq edilməsi ilə bir sıra görkəmli ədəbiyyatşünaslar məşqul olmuşdur. Həmin tədqiqatların sırasında Q.Quliyevin "XX əsr ədəbiyyatşünaslıq konsepsiyaları" (2012) və "Postmodernizm və bədii ədəbiyyat" (2016), A.Hacılının "Kamal Abdulla: seçimin morfologiyası", "Epik ənənə və müasir bədii nəsr" (1984), S.Şərifovanın "Çağdaş Azərbaycan postmodern romanı" (2015), N.Məmmədxanovanın "XX əsr II yarısının xarici nəsri" dərs vəsaiti (2006, rus dilində) qeyd edilməlidir.

Müəllif və müəllif problemi ilə bağlı tədqiqatlara gəldikdə isə, Kamal Abdullanın 1985-ci ildə müəllif, mətn, oxucu anlamları ilə bağlı "Müəllif – əsər – oxucu" kitabı dərc olunmuşdu və deyilən anlamlar həmin tədqiqatda öz elmi təhlilini tapmışdır. Rüstəm Kamalın "Kamal Abdulla: Yazıdan Mifə" əsəri həmçinin müəllif probleminin araşdırılmasında böyük əhəmiyyət kəsb edir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini K.Abdullanın "Yarımçıq əlyazma" (2004) və "Sehrbazlar dərəsi" (2006) romanları və B.Yevseyevin "Yurod" (1997) və "Romançik" (Skripka çalmaq texnikasının bəzi xırda təfsilatları) (2005) əsərləri təşkil edir.

Tədqiqatın predmetini isə rus və Azərbaycan postmodernist ədəbiyyatında həyat reallığının əks olunmasının xüsusiyyətləri, müəllif və müəllif mövqeyinin rus və Azərbaycan yazıçılarının postmodernist əsərlərinin poetikasında yeri və rolu məsələləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Dissertasiyanın əsas məqsədi Kamal Abdullanın və Boris Yevseyevin yaradıcılığını postmodernizm poetikası nöqteyi-nəzərdən araşdırmaqdan, hər iki yazıçının yaradıcılığında müəllif və müəllif mövqeyinin təzahürünü təhlil etməkdən ibarətdir. Dissertasiyada tədqiqat müasir rus və Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi olan iki sənətkarın – Kamal Abdullanın və Boris Yevseyevin yaradıcılığı əsasında aparılır. Bu seçim təsadüfi deyil. Hər iki yazısı eyni nəslə mənsubdur, demək olar ki, həmyaşdırlar. Hər iki yazıçı əsərlərində öz müəllif mövqeyini aydın və dəqiq şəkildə izah edir, bədii yaradıcılıq sahəsində eksperimentlər

aparır və postmodernizmə xas olan "oyunlar" oynamaqdan çəkinmir. Hər iki yazıçının orijinal əsərləri müasir dövrdə rus və Azərbaycan postmodernist ədəbiyyatında müəllif və müəllif mövqeyinin xüsusiyyətlərini üzə çıxarmaq üçün geniş imkanlar yaradır. Dissertasiyada hər iki yazıçının yaratdığı əsərlərdə müəllif başlanğıcının müxtəlif cəhətlərinin fəaliyyət göstərməsinin forma və üsullarının təhlil olunması, adı çəkilən yazıçıların ayrı-ayrı əsərlərində fərdi və milli xüsusiyyətlərin üzə çıxarılması da nəzərdə tutulur.

Tədqiqatın əsas məqsədi aşağıdakı vəzifələrin yerinə yetirilməsi ilə həyata keçirilir:

- XX əsrin sonu – XXI əsrin əvvəllərində rus və Azərbaycan ədəbiyyatının inkişafında əsas təmayülləri müəyyən etmək;
- postmodernizmin Rusiyada və Azərbaycanda ədəbi-estetik hadisə kimi formalaşması və inkişafı tarixini izləmək;
- "müəllif" və "müəllif mövqeyi" məfhumlarının mahiyyətini tarixi müstəvidə əsaslandırmaq;
- B.Yevseyevin postmodernist əsərlərinin poetikasını üzə çıxarmaq və yazıçının yaradıcılığında "müəllif" və "müəllif mövqeyi" məsələlərinin yerini və oynadığı rolu müəyyən etmək;
- K.Abdullanın yaradıcılığını, nəsr əsərlərini təhlil edib, onun postmodernist əsərlərinin xüsusiyyətlərini üzə çıxarmaq və müəllif mövqeyinin ifadə üsullarını xarakterizə etmək.

**Tədqiqat metodları.** Tədqiqat tarixi-müqayisəli metod əsasında aparılır. Müqayisə metodu Azərbaycan və rus post-modernizminin səciyyəvi xüsusiyyətlərinin, müəllif və müəllif mövqeyinin hər iki milli ədəbiyyatda, konkret olaraq K.Abdullanın və B.Yevseyevin yaradıcılığında müqayisəli-tipoloji planda təhlil etmək üçün geniş imkanlar yaradır.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- dünya ədəbiyyatında postmodernizm XX əsrin ortalarında formalaşmışdır və əvvəlki ədəbiyyatın nailiyyətlərindən bəhrələnməklə yanaşı, postmodernizm ənənəvi ədəbiyyatı yeni şəkildə təqdim edir və insanın psixoloji və mənəvi problemlərini özünəməxsus üsullar vasitəsi ilə tədqiq edir;
- "müəllif" və "müəllif mövqeyi" kateqoriyaları rus və Azərbaycan postmodernist ədəbiyyatında öz milli xüsusiyyətlərinə

malikdir, onların ədəbi postmodernist əsərin strukturunda müəyyən yeri var;

- B.Yevseyevin yaradıcılığında "müəllif" və "müəllif mövqeyi" kateqoriyalarının xüsusiyyətləri yazıçının əsərlərində rus postmodernist ədəbiyyatına xas olan cəhətlərlə yanaşı, başqa cərəyanlara (modernizmə) aid olan vasitələrlə də özünü biruzə verir;
- K.Abdullanın yaradıcılığında "müəllif" və "müəllif mövqeyi" məfhumu spesifik cəhətlərə malikdir. Həmin xüsusiyyətlər milli ədəbi ənənələrlə və eyni zamanda yazıçının fərdi, "postmodernist" dəst-xətti ilə bağlıdır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi ilk növbədə mövzunun kifayət qədər mürəkkəb olması və tipolojı-müqayisəli müstəvidə öyrənilməməsi ilə müəyyən edilir. Hal-hazırda postmodernist əsərlərin tipoloji və milli xüsusiyyətlərinin müqayisəli təhlili ilə bağlı sistemli araşdırmalara ehtiyac duyulur. Ondan əlavə, post-modernizmin iki (rus və Azərbaycan) nümayəndəsinin yaradıcılığının məhz milli ədəbi ənənələr kontekstində və müəllif və müəllif mövqeyi baxımdan tədqiqatı ilk dəfə aparılır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın elmi-nəzəri əhəmiyyəti rus və Azərbaycan postmodernizmi haqqında biliklərin genişlənməsindən, B.Yevseyev və K.Abdullanın yaradıcılığında postmodernist ədəbiyyatına xas olan cəhətlərin üzə çıxarılmasından, iki "milli" postmodernizmin səciyyəvi xüsusiyyətlərinin və burada "müəllif" və "müəllif mövqeyinin" spesifikliyinin öyrənilməsindən ibarətdir.

Tədqiqatın praktiki əhəmiyyəti isə əldə edilmiş əsas elmi nəticələrin və tezislərin "XX əsr müasir rus ədəbiyyatı" və "XX əsr müasir Azərbaycan ədəbiyyatı" fənlərinin, seçmə fənlərin tədrisində istifadə edilə bilməsi ilə bağlıdır. Tədqiqatın materialları Azərbaycan və rus postmodernist ədəbiyyatı, postmodernizm cərəyanı üzrə mühazirə kurslarının hazırlanmasında faydalı ola bilər.

**Dissertasiyanın aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas müddəaları müxtəlif elmi məcmuələrdə və beynəlxalq elmi konfransların materiallarında dərc edilən məqalə, tezis, məruzə və çıxışlarda öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Slavyan Universitetinin Rus ədəbiyyatı tarixi kafedrasında, əsas elmi tədqiqat istiqamətlərinə uyğun şəkildə yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın həcmi boşluqsuz 239875 işarədir (Giriş – 18061, birinci fəsil – 74223, ikinci fəsil – 71111, üçüncü fəsil – 67500, Nəticə – 8980). Biblioqrafiya 166 addan ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti müəyyənləşdirilir, müdafiəyə çıxarılan əsas müddəalar sadalanır.

Dissertasiyanın birinci fəsli **"Postmodernizmin nəzəri və estetik əsasları"** adlanır və o iki paraqrafdan ibarətdir. Bu fəsildə postmodernizm cərəyanının meydana gəlməsinin tarixi səbəbləri, onun səciyyəvi xüsusiyyətləri, nəzəri və estetik əsasları təhlil olunur. **"Postmodernizmin kulturolojı, fəlsəfi və bədii-ədəbi hadisə kimi"** adlı birinci paraqrafda qeyd edilir ki, postmodernizm (fr. – postmodernizme) XX əsrin sonunda formalaşmış geniş mədəni cərəyandır və o həm də fəlsəfəni, estetikanı, incəsənəti, elmi əhatə edir. Postmodernist əhval-ruhiyyəsi İntibah və Maarifçilik dövrü ideallarından, məyusluq, bu iki dövrün tərəqqiyə, zəkanın təntənəsinə, insanın intellektual imkanlarının sonsuz olmasına inamın böhranı ilə bağlı idi. Postmodernizm ümumi cəhətlərə malik olmaqla bərabər, hər bir milli ədəbiyyatda milli cəhətlərə malikdir. XX əsrin qlobal problemləri özünü dövrün əhval-ruhiyyəsində, bədii dilin eklektikasında göstərirdi. Postmodernizmdə yeniləşməyə avanqard münasibət, dünya mədəniyyətinin bütün nailiyyətlərindən istifadə edilməsi ön plana çəkilir, lakin həmin fəaliyyət postmodernizmdə artıq istehzalı şəkildə baş verirdi. Postmodernizm özündən əvvəl

mövcud olan paradiqmalardan, klassik və modern prinsiplərin vəhdətindən ibarətdir.

Hal-hazırda postmodernizm təkcə ədəbi cərəyan kimi deyil, artıq sosial məfhum kimi dərk edilir. Postmodernizmin meydana gəlməsi ilə bağlı ən fərqli fikirlər mövcuddur.

"Postmodernizm" termini ilk dəfə I Dünya Müharibəsi dövründə, R.Panvitsin "Avropa mədəniyyətinin böhranı" (1914) əsərində işlənmişdi. 1934-cü ildə, ədəbiyyatşünas F.De Onis "İspaniya və Latın Amerikası poeziyası antologiyası" əsərində "postmodernizm" terminini modernist ədəbiyyatına qarşı bir reaksiya kimi izah edir. 1947-ci ildə A.Toynbi özünün "Tarixin dərk edilməsi" əsərində postmodernizm terminınə kulturoloji məna verir. A.Toynbinin fikrincə, postmodernizm dində və mədəniyyətdə Qərbin hökmranlığının sona yetməsinin simvoludur. Qərbin aparıcı politoloqları Y.Habermas, Z.Bauman, D.Bell postmodernizmi neokonservatizmin yekunu, post-sənaye cəmiyyətinin rəmzi, nəhayət, cəmiyyətin dərindən transformasiya olunması kimi izah edirdilər[1]. Həmin dəyişikliklər, *total konformizmdə, "dünyanın, tarixin axırı" ideyalarında, (F.Fukuyama), estetik eklektizmdə özünü biruzə verirdi*"[2].

Postmodernizmin çoxsaylı elmi tərifləri mövcuddur. Postmodernizmdə post-kultur (post-mədəni) yaxud mədəniyyət arası (yəni keçid) dövrün boşluğunda keçmişə nostalji artıq prinsipial, tam yeni xarakter alır. Nəticədə postmodernizmdə əvvəl mövcud olan incəsənətin, ədəbiyyatın müəyyən "təftişi" müşahidə olunur və həmin yenidən baxılma maksimum kinayəli yolla baş verirdi.

Modernizm-postmodernizm konsepsiyasının ən nüfuzlu təbliğatçılarından biri olan Malkolm Bredberi özünün məşhur "Müasir dünya: on dahi yazıçı" kitabında yazır ki*, "modernizm artıq tarixi keçmişə məxsusdur və hazırki durumda o öz yerini, mövqeyini başqa hadisəyə – postmodernizmə verib*"[3].

---

[1] Quliyev, Q.H. XX əsr ədəbiyyatşünaslıq konsepsiyaları / Q.H.Quliyev. – Bakı: Mütərcim, – 2012. – s. 123.

[2] Quliyev, Q.H. XX əsr amerikan ədəbiyyatşünaslığında aparıcı cərəyanlar / Q.H.Quliyev. – Bakı: Mütərcim, – 2011. – s. 98.

[3] Мамедханова, Н.Дж. Зарубежная проза II половины XX века. (Литература Франции, Великобритании, Германии). Учебное пособие / Н.Дж.Мамедханова. – Баку: Элм, – 2006. – с.21.

Birinci fəslin ikinci paraqrafı **"Postmodernizmin estetik-ədəbi xüsusiyyətləri"** adlanır və bu paraqrafda qeyd edilir ki, postmodernist estetikasının spesifikliyi klassik ənənələrin qeyri-ənənəvi şəkildə izah olunmasını əsas götürür. Postmodernist ədəbiyyatı dünyanı özünəməxsus şəkildə, seyrçi-istehza şəkildə dərk edirdi. Bununla postmodernistlər "fövqalinsan" portretinə son cizgiləri əlavə etməklə, onu tamamlayırlar. Həmin "fövqalinsan" nə dünyanın əyriliyini, haqsızlığını düzəldir, nə də özünü təkmilləşdirir, o yalnız özünü qurban verməyə hazır olan bir şəxsdir. Bəzi postmodernistlər, "mən"in fraqmentləşdirilməsini "mən", "özəllik", "bütövlük", "eqo", "şəxsiyyət", "şüur", "təcrübə" anlayışlarının sinonimi kimi qəbul edir.

Postmodernist ədəbiyyatda roman ilk növbədə kosmolojı struktur kimi yaranır, və həmin aləm, dünya sonralar sözlər vasitəsi ilə təsbit edilir. Müəllifin fikrincə, onun əsas vəzifəsi həmin dünyanın yaranmasına yönəlir. Postmodernist ədəbiyyatşünaslığın nümayəndələri "dünya xaos kimi", "postmodernist hissiyyat", "dünya mətn kimi", "şüur mətn kimi", "intermətnlilik", "nüfuz sahiblərinin böhranı", "epistemioloji tərəddüd", "müəllif maskası", "ikili kod", "təhkiyənin parodiya modusu", "pastiş", "ziddiyyətlilik", "qırıqlıq", "təhkiyənin fraqmentarlığı" (non-seleksiya prinsipi) "ünsiyyətin iflası", "metatəhkiyə" kimi anlayışlar yaradır, onlara əsaslanır, onlardan geniş istifadə edir.

Postmodernizmin əsas xüsusiyyətlərindən biri də dünyaya qarşı "oyun" münasibətidir. Həmin oyun azaddır, və bununla yanaşı o nə xaos, nə də anarxiyadır. "Oyunun" gedişi (nə qədər ziddiyyətli səslənsə də) nizamlanıb, oyunun nəticəsi isə qabaqcadan bilinməzdir.

Holland alimi D.Fokkemanın fikrincə postmodernist hissiyyatın forması "dünya modelini" qurmaq üçün göstərilən mənasız bir cəhddir və bu yolda heç bir real nəticə əldə etmək mümkün deyil. İngilis postmodernisti D.Locun fikrincə bu tipli mətnlərin əsas xüsusiyyəti təhkiyə səviyyəsində hadisələrin gedişi ilə bağlı oxucuda "*tərəddüd*" oyatmaqdır[4]. D.Fokkema göstərir ki, postmodernizmin kodu mətn "istehsalını" nizamlayan kodlardan biridir.

---

[4] Quliyev, Q.H. XX əsr ədəbiyyatşünaslıq konsepsiyaları / Q.H.Quliyev. – Bakı: Mütərcim, – 2012. – s. 94.

Amerika tənqidçisi A.Uayld postmodernist hissiyyatın, həyatın bütün təzahürləri ilə münasibətdə “təsirli istehza” kimi çox mühüm əlamətini ortaya qoymuşdur. Fransız ədəbiyyatşünası R.Bart istənilən bədii ədəbiyyat nümunəsində beş kodun mövcudluğunu göstərir: mədəni, hermenevtik (dini,fəlsəfi mətnlərin şərh edilməsi), simvolik (rəmzi), semik və narrativ. (*ing. narration – təhkiyə)*[5].

Postmodernizmin tədqiqatçıları Ç.Cenks və T.D’An, R.Bartın semiotik bədii əsər konsepsiyasını postmodernist istehza nəzəriyyəsi ilə əlaqələndirməyə çalışmış və bu məqsədlə “ikili kod” məfhumunu irəli sürmüşlər. Onların fikrincə, R.Bartın üzə çıxardığı bütün kodlarda müxtəlif ədəbi üslubların, janr formalarının və bədii cərəyanların istehza prinsipi əsasında müqayisəsi məqbul hesab olunur, digər tərəfdən həmin kodlar ədəbi-bədii praktikada iki böyük fövqalsistem kimi çıxış edir.

Ayrı-ayrı postmodernist yazıçılar fərdi üslubların qarşılıqlı dialektik münasibətdə olan postmodernizmin sosial üslubunu qismən də olsa, təkzib etməli olur. Yəni postmodernist kod bu və ya digər semantik və sintaktik vasitələrin üstün seçimi kimi təsvir edilə bilər. Bu halda postmodernist yazıçı “*non-selection*” (*seçilməyən*) üsulunu, mətnin təşkilinin aparıcı prinsipi kimi irəli sürür. Başqa bir üsul, yəni “*permutasiya*” üsulu postmodernistlərin realizmin və modernizmin ədəbi şərtiliklərinə qarşı mübarizədə istifadə etdiyi əsas vasitələrdən biridir. “Permutasiya” dedikdə mətnin ayrı-ayrı hisslələrinin bir-birini qarşılıqlı şəkildə əvəz etməsi nəzərdə tutulur.

Postmodernizm nümayəndələrinin məntiq paradoksallığı hər şeydən əvvəl ondan ibarətdir ki, qarşılıqlı şəkildə bir-birini istisna edən fikir və hadisələr arasında tamamlama prinsipi əsasında mütləq ekvivalentlik yaranır. D.Loc, D.Fokkema, L.Heyman kimi görkəmli tədqiqatçılar postmodernist yazının çoxsaylı “təhkiyə strategiyaları”nı üzə çıxarmış və sistemləşdirmişlər, yəni bədii yaradıcılığın sırf şərti xarakterini sübut etməyə cəhd göstərmişlər.

---

[5] Барт, Р. Избранные работы. Семиотика. Поэтика / Р.Барт. – Москва: Прогресс, – 1989. – с. 211.

*Müəllifin bu fəsillə bağlı gəldiyi əsas nəticə və müddəalar qeyd olunan məqalə və konfrans materiallarında dərc olunmuşdur*[6].

Dissertasiyanın ikinci fəsli **"Boris Yevseyev nəsrinin postmodernizm konteksti"** adlanır və bu fəsil iki paraqrafdan ibarətdir. Bu fəsildə rus postmodernizminin səciyyəvi xüsusiyyətləri Boris Yevseyevin əsərlərinin timsalında təhlil olunur. **"Rus postmodernizmi və "müəllif" anlamı"** adlı birinci paraqrafda qeyd edilir ki, rus postmodernizmi ədəbiyyat kontekstinə tədricən yiyələnirdi. 1960-70-ci illərdə Avropada və qismən Rusiyada "postmodernizm" anlayışı sosial sarsıntılarla bağlı, sonra isə daha çox ədəbi yaradıcılıqla əlaqədə tədqiq olunmağa başlamışdı. Rus postmodernistləri Avropa nəzəriyyəçi alimləri tərəfindən işlənib hazırlanmış və qələm ustaları tərəfindən tətbiq edilmiş tələbləri mənimsəyərək, onları yaradıcı şəkildə inkişaf etdirmişlər. Daha dəqiq desək, rus postmodernizmi artıq mövcud olan fəlsəfi, dini, elmi biliklərdən imtina etmişdi. Rus postmodernizmi də insanın, cəmiyyətin inkişafı ilə bağlı elmin açdığı həqiqətləri həm intellektual, həm mənəvi-etik baxımdan əsassız hesab edirdi. Postmodernizm milli fərq tanımadan əvvəlki sistemləri, baxışları dağıtmışdır.

Bir çox nəzəriyyəçi alimlərin fikrincə, postmodernizm XX-XXI əsrlərin kəsişməsində formalaşan mədəni şüur əlamətlərinin müəyyən birləşməsindən yaranmışdı. Məsələn, Asif Hacılı "*postmodernizm*" terminini hərfi mənada qəbul etmir və çox maraqlı fərziyyə irəli sürür. A.Hacılı yazır ki, "*postmodernizmi "moderndən*" sonra meydana gəlmiş konseptual məfhum, yaradıcılıq metodu kimi deyil, onunla yanaşı yaranan "*fenomen*" kimi qəbul etmək lazımdır"[7].

---

[6] Садиева, К.М. Постмодернизм как художественная система // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. – Bakı: Mütərcim, – 2012. №4, – s. 186-189.; Sadiyeva, K.M. Postmodernizm-ədəbi fəlsəfi cərəyan kimi // – Bakı: Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. – 2014. №4, – s.144-147.; Sadiyeva, K.M. Müasir Qərb ədəbiyyatşünaslıgında və ədəbi tənqiddə postmodernizimlə baglı yeni konsepsiyalar haqqında // Ulu Öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər. Beynəlxalq Elmi konfransın materialları. – Bakı: 3-5 may, – 2016. – s. 346-348.; Sadiyeva, K.M. Postmodernizmin kulturoloji, fəlsəfi və bədii-mədəni aspektləri // Ədəbiyyat məcmuəsi. – Bakı: – 2017. XXXII cild, – s.207-213.

[7] Hacılı, A.A. Kamal Abdulla. Seçimin morfologiyası / A.A.Hacılı. – Bakı: Mütərcim, – 2010. – s.41.

Müasir rus nəsrində ortodoksal (*sabitlik*) və "əcaib" postmodernist üsulların və vasitələrin mövcudluğu haqqında rəylər çox ziddiyyətlidir, onlar tam müsbət, yaxud tam mənfi səciyyə daşıyır. Buna baxmayaraq, etiraf etmək lazımdır ki, postmodernizm hazırkı dövrdə mənəviyyatın dərin böhranını əks etdirir və dövrün tələblərindən irəli gəlir.

XX əsrin sonunda insanların dünyagörüşü köklü şəkildə dəyişmişdi. Əvvəllər qəti qadağalar qoyulmuş problemlər postmodernizm ədəbiyyatında, xüsusən də rus postmodernizmində tam çılpaqlığı ilə əks olunurdu. Rusiyada postmodernizmlə bağlı özünəməxsus ədəbi assosiasiya sistemi yaranmışdır. Belə ki, rus ədəbi postmodernizminin tanınmış tədqiqatçısı V.Kuritsın özünün bir çox əsərlərində daha "çevik" olan "post-"morfemini "müasirlik" sözü ilə əlaqədə tətbiq etməyə üstünlük verir. Tədqiqatçının fikrincə, "*bu cür "morfolojı birləşmə" ədəbi qəhrəmanın eyni vaxtda zamanın bir neçə qatında olmasını daha dəqiq şəkildə göstərir*"[8].

"Postmodernizm" termini özü də fərqli şəkildə izah olunur. Məsələn, İ.P.İlyin hesab edir ki "*postmodernizm fəlsəfi, epistemolojı, elmi-nəzəri və emosional-etik təsəvvürlər kompleksidir*" [9]. O.B.Vaynşteyn və Y.Borev "postmüasirlik"dən söhbət açır və rus yazıçılarının əsərlərinin terminoloji təyinatını XXI əsrin düşüncə tərzinə uyğunlaşdırırlar. Buna görə ədəbiyyatşünas Y.Borev həmin məsələni "*yeni dövrün" insanının, şəxsiyyətinin təhtəlşüuru ilə əlaqələndirir və etiraf edir ki, "insan dünyanın təzyiqinə tab gətirə bilmir və post-insana çevrilir*"[10]. O.Vaynşteyn isə öz fikrini belə yekunlaşdırır: "*Postmodernizm son onilliklərdə sivilizasiyanın qlobal durumu, mədəni əhval-ruhiyyənin və fəlsəfi cərəyanların cəmidir*"[11].

V.V.İvaşova qeyd edir ki, "*bizim dövrdə ədəbi kodun dəyişməsi, yazıçının rolunun, oxucu tipinin, hətta ədəbiyyatın özünün*

---

[8] Курицын, М. Русский литературный постмодернизм / М.Курицын. – Москва: Publisher ОГИ, – 2000. – с.72.

[9] Ильин, И.П. Постмодернизм от истоков до конца столетия. Эволюция научного мифа / И.П.Ильин. – Москва: Интрада, – 1998. – с.80.

[10] Борев, Ю. Эстетика / Ю.Борев. – Москва: Издательство политической литературы, – 1988. – с. 93.

[11] Вайнштейн, О.Б. Постмодернизм: история или язык? // – Москва: Вопросы философии, – 1993. № 3, – с. 3-9.

*dəyişməsi baş verir*"[12]. N.Məmmədxanovanın qeyd etdiyi kimi, "yenilik absolyut (*mütləq varlıq*) səviyyəsinə qaldırılmışdı. Yeniliyin absolyutlaşdırılması, klassik ədəbiyyata xas olmayan cəhətlərin ona əlavə edilməsi, rus nasirləri üçün dünyaya münasibətin, onu qiymətləndirilməsinin asan və rahat yolu idi. Beləliklə, rus postmodernizmi yeniliyi "*keçmişin ənənələrini unutmaqla yaşamaq*" vasitəsinə çevirmişdi[13].

"Müəllif" məfhumu ətrafında yaranan problemlərə gəldikdə isə, onlar indiyə qədər nə nizama salınıb, nə də bir qayda kimi qəbul edilib. Bu səbəbdən təhlil olunan əsas məfhumları daha dəqiq şəkildə müəyyənləşdirməyə ehtiyac duyulur.

Rus postmodernizmində müəllif problemi xüsusi əhəmiyyət kəsb edir. Bir çox müasir tədqiqatçıların etiraf etdiyi kimi, müəllif problemi XX əsrin II yarısında artıq ədəbiyyatşünaslığın mərkəzi problemlərindən birinə çevrilmişdir. Bu da həm ədəbiyyatın özünün, həm də ədəbiyyatşünaslığın yeni istiqamətdə və yeni müstəvidə inkişaf etməsi ilə bağlıdır. Yazıçının diqqətinin hansı məqamda cəmləşməsindən asılı olaraq, ədəbi əsərdə müəllif obrazından və müəllifin personajlarla münasibətindən,əsərdə iştirakının nisbətindən söhbət aparmaq mümkündür. Bu baxımdan, B.Yevseyevin əsərləri müəllif probleminin tədqiqi üçün çox maraqlı material təqdim edir.

Dissertasiyanın ikinci fəslinin ikinci paraqrafı **"Boris Yevseyevin yaradıcılığında müəllif obrazı və müəllif mövqeyi"** adlanır və bu paraqrafda "müəllif" və "müəllif mövqeyinin" özünü necə nümayiş etdirməsi təhlil olunur.

Boris Yevseyev haqlı olaraq rus postmodernizminin ən görkəmli nümayəndələrindən biri hesab olunur. B.Yevseyevin "Romançik", "Yurod", "Qoç" əsərləri çox uzaq, "etiraf" nəsrinin əks-sədası idi. Əslndə, 1960-1980-ci illərdə bu cür əsərlər yeni dövrün ilk qaranquşu, azadlığın bir udumu idi. Bununla yanaşı B.Yevseyevin "Romançik" əsəri nəzərə çarpacaq dərəcədə

---

[12] Ивашева, В.В. Литература Великобритании XX века / В.В.Ивашева. – Москва: – 1984. –с. 45.

[13] Мамедханова, Н.Дж. Зарубежная проза II половины XX века. (Литература Франции, Великобритании, Германии). Учебное пособие / Н.Дж.Мамедханова. – Баку: Элм, – 2006. – с. 37.

“maskalanıb”, lakin spesifik postmodernist üsullar vasitəsi ilə mövzu və ideyaların reallaşması bundan zərər çəkmir. B.Yevseyevin “Romançik” əsəri bir çox tədqiqiatçıların diqqətini cəlb etmişdir. Məsələn, D.Bıkovun fikrincə “qaçış” motivi B.Yevseyevin yaradıcılığında xüsusi yer tutur və onun “Romançik” əsərində reallıq və xulya motivləri, onların nisbəti hətta yazıçının siyasi baxışlarını arxa plana çəkir. L.Anninski və L.Lipovetski qeyd edirlər ki, B.Yevseyevin “Romançik” əsəri əvvəllər M.Bulqakovun “keçmişə qayıdış” motivinə müraciətinin nümunəsidir.

B.Yevseyevin “Romançik” əsəri bir çox aspektlərdən əhəmiyyətli görünür və onun əsərində müəllif və müəllif mövqeyinin necə təzahür etməsinin araşdırılması üçün çox geniş imkanlar yaradır. Bu əsər postmodernist estetikanın əsas qanunlarına riayət etməklə qurulur.Əsərin baş qəhrəmanı musiqiçi tələbə Borislav Timofeyeviç Yevseyevdir. Onun adının özü müəllifin adı ilə səsləşir, bu da artıq müəllifin əsərin süjetində fəal iştirakını vurğulayır. “Romançik” də coğrafi məkan həm reallıqda, həm xəyallarda gah daralır, gah da genəlir və Yevseyevin sözləri isə desək, “kiçik kainat”a dönür. Bundan əlavə, “Romançik”də “zaman”dan “zamana” keçid də müşahidə olunur. B.Yevseyev tarixi mövzuya toxunarkən tarixi irsə çox ehtiyatla yanaşır və öz əsərlərində keçmiş dövrün qəhrəmanlarına qarşı bilavasitə tənqiddən çəkinir. Sovet dövrü qəhrəmanları haqqında əfsanələrin ifşası B.Yevseyev tərəfindən partiya aparatına tənqidi münasibət çərçivəsində qurulur. “Romançik”də siyasi aspekt nə qədər əhəmiyyətli olsa da, əsər indiki zamandan keçmişə, “kiçik vətənə” qayıdışdan başlayır. Bu qayıdış baş qəhrəmanın qəlbinə əziz olan tarixi vətəninə, ata-baba yurduna ziyarəti idi. O zaman, yəni 1973-cü ildə həmin torpaq – Nikolayev, Odessa, Mariupol, Xerson dünyanın ən gözəl guşəsi idi. Burada da baş qəhrəmanın duyğuları, hissləri müəllifin şəxsi tərcümeyi-halı ilə səsləşir. (B.Yevseyev özü Xerson şəhərində anadan olmuşdur). Insan keçmişə, gözəl, bəxtiyar uşaqlığa gedib reallığa qayıdır və bəzən özü özündən qaçmağa cəhd göstərir. Zaman öz sonsuzluğu ilə sanki bir nöqtədə cəmləşir, məkan isə üçölçülü deyil, çoxölçülü olur, bu da rus postmodernizmi üçün səciyyəvi xüsusiyyətdir.

Keçmişi vaxtaşırı unutmaq “Romançik” əsərində baş qəhrəmanın xarakterinin əsas xüsusiyyətidir. Əsərdə hadisələrin 1973-cü ildə cərəyan etməsi də təsadüfi deyil. Boris Yevseyevin orijinal ideyasına uyğun olaraq, baş qəhrəman 1937-ci ilə, qanunsuz repressiyalar ilindən onun əksi olan 1973-cü ilə keçir. Hekayət musiqidən sevgiyə, sevgidən tərcümeyi-hala (müəllifin öz tarixi vətənində, Novorossiyada olması səhnələri) keçir, nəhayət 1937-ci və 1973-cü illərin hadisələri ilə bağlı siyasi nəticələr və ümumiləşdirmələr arasında məkan-zaman körpüsü “salınır”. Müəllif 1974-cü ili də qeyd edir və bunu da repressiya illəri ilə əlaqələndirir 74 iki dəfə 37 deməkdir. Ümumiyyətlə, B.Yevseyev repressiyalar dövründən bəri sovet quruluşunun mahiyyətcə dəyişmədiyini göstərir.

“Romançik”də məkan-zaman yerdəyişmələri ideyası tamamilə xulya ideyasına tabe olur və nəticədə ictimai əlaqələrin pozulması və daha geniş mənada dünyanın xaos içində qalması ideyasının təsdiqinə çevrilir. “Romançik” əsərində müəllif obrazı və müəllif mövqeyi çox incə şəkildə təqdim olunur və müəllif şəxsiyyətinin öz qəhrəmanında təcəssümü və yaxud ondan uzaqlaşması bir çox hallarda nəzərə çarpmır və çox üzvi şəkildə baş verir.

B.Yevseyevin başqa bir əsəri “Yurod” yəni “Divanə” adlanır. Bu əsərdə B.Yevseyev sovet keçmişinin insanların dünyagörüşündə hansı izləri qoymasını və yeni dövrə necə təsir göstərdiyini üzə çıxarır. B.Yevseyev açıq göstərir ki, imperiyanın məhv olmasına və yeni, hələ müəyyən edilməmiş quruluşun yaranmasında böyük çətinliklərin, uğursuzluqların meydana gəlməsinə məhz kommunist quruluşunun səhvləri, pozğunluğu, riyakarlığı, mənəviyyatsızlığı səbəb olmuşdu. “Yurod” povesti 90-cı illərin sonunda yazılmışdı və bu əsər “divanəliyin ali, yüksək həqiqəti” haqqındadır. Divanəlik (uydurma yox, məhz əsl yurodluq) qəhrəmanın qəlbinə həyatın “dəliliyindən” qurtuluş kimi daxil olur. Yurod olan Serov psixiatriya klinikasının pasiyentidir, lakin başqa pasiyentlərdən fərqli olaraq, Serov kim olduğunu unutmayıb, vaxtilə elmi-tədqiqiat institutunda bölmə müdiri olmasını da bilir. Serov özü də etiraf edir ki, “işlədiyi institut dəyərsiz və ölüvaydır”. Bu, reallıqdır, lakin o, həmin reallıqda özünü öz yerində hiss edirdi. Bu əsərdə müəllif ilk növbədə Rusiyanı psixiatriya

xəstəxanasına bənzədir və Rusiyanı müasir dövrdə necə yoluna qoymaq mövzusunu qaldırır.

Postmodernizmin qanunlarına uyğun olaraq "xəstə" Rusiya cəmiyyətinin böhran vəziyyətinə mənfi reaksiyası istehza və rişxəndlə, açıq hoqqabazlıqla göstərilir. Klinikada müasir Rusiyada yaşayan müxtəlif təbəqələrdən olan insanlar müalicə alır və onlar real gerçəkliyin absurd (*boş*) olmasını və vəziyyətin komikliyini özündə əks etdirir. Real həyat əsərdə çox tənqidi şəkildə göstərilir. Müəllif müəyyən mənada əsl fikirlərini yurod kimi gizlədir, ya da fikirlərini "yurodluq" yolu ilə bildirir. Bununla B.Yevseyev çox mühüm bir fikri vurğulayır – həqiqəti söyləmək nə qədər çətindirsə, real iş görmək ondan qat-qat ağırdır. Hamı vəziyyətdən narazılıq edir və hər kəs özünü istisna etməklə, həqiqəti, əməli işi ətrafdakı insanlardan gözləyir. Burada müəllifin mövqeyi özünü açıq şəkildə bildirir və müəllif artıq əsərin fəal iştirakçısına çevrilir. Əsərdə müəllifin "səsi" eşidilir, təsvir edilən hadisələrin müəllif tərəfindən necə qiymətləndirilməsi hiss olunur.

*Müəllifin bu fəsillə bağlı gəldiyi əsas nəticə və müddəalar qeyd olunan məqalə və konfrans materiallarında dərc olunmuşdur*[14].

Dissertasiyanın üçüncü fəsli **Kamal Abdullanın yaradıcılığında "müəllif" və "müəllif mövqeyi" anlayışlarının spesifikliyi"** adlanır, bu fəsil də iki paraqrafdan ibarətdir. Üçüncü fəslin birinci paraqrafı **"Kamal Abdulla nəsrinin Azərbaycan postmodernizmində yeri"** adlanır. Bu paraqrafda Kamal Abdullanın yaradıcılığının səciyyəvi xüsusiyyətləri göstərilir, qeyd edilir ki, yenilikçi ədəbi cərəyanlar (modernizm, neomodernizm, neorealizm,

---

[14] Садиева, К.М. Авторское начало и способы его выражение в русском постмодернизме // ADU-nun doktorantların və gənc tədqiqatçılarınn XIV Respublika elmi konfransının materialları. – Bakı: – 4-5 dekabr, – 2010. – s. 212-213.; Садиева, К.М. Особенности русского постмодернизма и этапы его развития // – Bakı: Filologiya məsələləri, – 2012. №5, – s.561-566.; Sadiyeva, K.M. Rus postmodernizminin təkamülünün nəzəri-fəlsəfi təhlili // Ədəbiyyat məcmuəsi. – Bakı: – 2017. XXXI cild, – s.301-307.; Садиева, К.М. Особенности становления постмодернизма в России. "Artistic interpretation of globalization problems and Contemporary images" Beynəlxalq Elmi konfransının materialları. Özbəkistan, Taşkent, – 9 avqust, – 2018. – s. 363-369.; Садиева, К.М. Характерные особенности русского постмодернизма // Мир науки, культуры, общества. – Горно-Алтайск: – 2018. №1, – с.419-420.

postmodernizm) nümayəndələri arasında Kamal Abdulla xüsusi yer tutur. Onun romanları və povestləri ("Yarımçıq əlyazma", "Sehrbazlar dərəsi", "Ruh", "Unutmağa kimsə yox" pyeslər toplusu və b.) hal-hazırda Azərbaycanda postmodernist ədəbiyyatının formalaşmasından və təşəkkül tapmasından xəbər verir.

Kamal Abdullanın aşkar qeyri-ənənəvi, yenilikçi və eyni zamanda problemli olan yaradıcılığı həm yazıçıların, həm tənqidçilərin diqqətini cəlb edir. Azərbaycan yazıçısı özünün məşhur əsərlərində – "Yarımçıq əlyazma" və "Sehrbazlar dərəsi" romanlarında həqiqətən qlobal, hal-hazırda bütün bəşəriyyət üçün önəmli olan məsələləri qaldırır və əsərlərdə qoyduğu problemləri özünəməxsus şəkildə, müasir tərzdə oxucuya təqdim edir.

Kamal Abdullanın "Yarımçıq əlyazma" və "Sehrbazlar dərəsi" əsərləri məharətlə qurulmuş süjeti ilə yazıçının həm də müasir linqvistikada, fəlsəfədə, tarix, mifologiya, mədəniyyətşünaslıq sahəsində dərin biliklərə malik olmasını göstərir. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan ədəbiyyatında postmodernizm Rusiyadan fərqli olaraq yalnız fəlsəfə kimi deyil, həm də əsərdə başqa müəlliflərin fikirlərinin istifadə edilməsi və qiymətləndirilməsi vasitəsi kimi çıxış edir. Ümumiyyətlə, postmodernizm üslubunda yazılmış bədii əsərləri təhlil edərkən, strukturun ayrı-ayrı elementlərini birləşdirmək yaxud ayırmaq, onları birlikdə, yaxud təcrid edilmiş şəkildə araşdırmaq mümkündür. S.Qafarova haqlı olaraq qeyd edir ki, "*hal-hazırda janrşünaslıq sahəsində çox ziddiyyətli fikirlər mövcuddur. Yəni bir tərəfdən ədəbi növlərin və janrların qarşılıqlı təsir etməsi və əlaqədə olması, bir-birinə nüfuz etməsi, inteqrasiyaya meylli olması, digər tərəfdən onların bir birindən fərqlənməsi bir fakt kimi mübahisəsiz olaraq qalır*"[15]. Bu baxımdam "Yarımçıq əlyazma" əsəri xüsusi maraq doğurur.

"Yarımçıq əlyazma" romanı hər şeydən öncə Azərbaycan ədəbiyyatşünaslığında və bədii düşüncəsində ədəbi hadisə, poetik fakt kimi önəm daşıyır. Roman beynəlxalq səviyyəli əsər olaraq ədəbiyyat xəzinəsində özünə yer almaqla yanaşı, prinsipcə yeni estetik düşüncəni, ədəbi konsepsiyanı meydana gətirməsi ilə

---

[15] Гафарова, С.А. Проблема синкретизма жанровых структур в современной литературе: / автореферат диссертации доктора филологических наук / – Баку, – 2004. – с.43.

qiymətlidir.

Mürəkkəb quruluşu və semantikası, özünəxas poetik quruluşu olan bu roman – "Yarımçıq əlyazma" Azərbaycan ədəbiyyatında mifologiyaya, eposa və tarixə fəlsəfi bədii baxışın ilk fundamental və konseptual yanaşması olub, ilk postmodernist təcrübəsidir.

Qeyd olunduğu kimi, bəlli postmodern dövrünün romanlarında tarixi şəxsiyyətlərdən prototip qəhrəmanların formalaşdırılması məqsədilə istifadə olunur. Kamal Abdullanın postmodern romanında tarixi fiqurlar xüsusilə ikinci dərəcəli xarakterlərin yaradılması məqsədilə istifadə olunmuşdur. Kamal Abdullanın "Yarımçıq əlyazma" əsərində Şah İsmayıl personajı ikinci dərəcəli obraz kimi nəzər diqqətimizi cəlb etmişdir. Kamal Abdulla romanda Şah İsmayıl obrazını, biri həqiqi Şah İsmayıl, o birisini isə Şah İsmayıl-Xızır obrazı kimi təqdim etmişdir. Gerçək Şah İsmayılı Şahi-Mərdan göylərə çağırır. Buna görə də gerçək Şah İsmayıl taxt-tacını Şah İsmayıl Xızıra təhvil verərək qeybə çəkilir. Əlbəttə, bu bir tarixi fakt deyildir. Romanda postmodern interpretasiyası (*izah, yozum*) sayəsində Şah İsmayıl personajı dekonstruksiyaya düçar olur. Şah İsmayıl Xətai qəhrəmanlıq taxtından endirilmişdir. Şah İsmayıl xarakterinin verilməsində imitasiya peşəkarcasına özünü biruzə verir. "Şah və hökmdar" konflikti əsərdə getdikcə mülayimləşir – dünyanın sarsıdıcı mübhəm mübarizələri adətən şəxslərin fiziki məhvi ilə zahirən aradan qaldırılır. Oğuzlar isə onları bir etnos kimi bir araya gətirən epik qəhrəmanlıq nümunələrini, etno-milli dəyərlər sistemini sarsıdacaq casusla bağlı münaqişədən imtina edirlər.

Əsərdə epos və tarix təkcə müasir müstəvidə aktuallaşdırılmır, eyni zamanda, özünüifadə üçün əsas mənbəyə çevrilir, – yeni bir epos və tarixin "meydana gəlməsi" təzahür edir (təbii ki, bunlar işarəvi mətnlər haqqındadır).

K.Abdullanın "Yarımçıq əlyazma" əsərində Dədə Qorqud yalnız Bayandur xanın katibi deyil, eyni zamanda sirlərini qoruyandır, bu sirlərdən ayan olandır və bu baxımdan sirdaşıdır; Oğuz elində hər bir kəsə məlumdur ki, *"Dədəyə etibar edilmiş sirr diqqətlə mühafizə olunacaqdır"*[16].

---

[16] Abdulla, Kamal. Yarımçıq əlyazma / Kamal Abdulla. – Bakı: XXI-YNE, – 2004. – s.78.

Müəllif personajların münasibətlərinin heç də sadə olmadığını, çoxcəhətliliyini həm "əlyazma" mətnində, həm də öz qeydlərində ifadə edir. Hadisələrin gizli məzmununa agah və aidiyyatı olan əsas personajların, Şah – Lələ – Xızr – Vəzir münasibətlərinin mürəkkəbliyi sonadək saxlanılır. Bu münasibətlər personajlar arasında yalnız ikili əlaqələr deyil, bütün tərəflərin eyni vaxtda iştirak etdiyi çoxtərəfli dinamik sistem olduğundan mətnə də dinamik tarazlıq gətirir. Təhlilə cəlb olunmuş "Yarımçıq əlyazma" və "Sehrbazlar dərəsi" əsərlərinin mətni forma və məzmun baxımından fərqli olsa belə, müəllif axtarışlarının fəlsəfi istiqaməti, mütləq və əbədi anlayışlara olan istiqaməti dəyişməz olaraq qaldığı görünür. Bu spesifiklik, bədii təfəkkür ədəbiyyatımıza yeni məfhumlarla bərabər, bir sıra bədii keyfiyyət dəyişikliklərinin də gəlməsinə zəmin yaratmışdır.

Romanın kompozisiya layları – Gəncə zəlzələsi, Oğuz dönəmi, Xətai zamanı və modernlik "əlyazma" mətninə çərçivə olaraq təqdim olunsa da, müasirliyi əks etdirən izahlar, çərçivələr, qeydlər öz bədii funksiyasına görə heç də az əhəmiyyət daşımayaraq birləşir və modelləşdirici struktur əmələ gətirir. *Kamal Abdullanın "Yarımçıq əlyazma" əsəri qədim Azərbaycanın tarixində dönüş mərhələsinin parlaq oxunuşudur və klassik epos "Dədə Qorqud"un meydana gəlməsi səbəblərinin yeni izahatı, traktovkası (şərh) kimi qiymətləndirilə bilər*"[17]. Yəni, Kamal Abdulla bir müəllif kimi yeni, fərqli rakursda çıxış edir. Bu fikri təsdiq etmək üçün Kamal Abdullanın başqa bir əsərinə – "Sehrabazlar dərəsi" romanına müraciət etmək məntiqi olardı.

Kamal Abdullanın "Sehrbazlar dərəsi" (2006) əsərində sufi fəlsəfi ənənəsinin müəllifin ideyasına tabe olması aciq aşkar görünür. "Sehrbazlar dərəsi" əsərində dünyəvi ehtirasların heç bir anlam daşımaması, bütöv olaraq yaşadığımız cəmiyyətin və insanın necə mənasız olması problem kimi önə cıxarılır. «Sehrbazlar dərəsi» «ümumbəşəri» və zaman xaricində olan bir anlama malikdir, məhz buna gorə də əsəri roman-pritça kimi qeyd etmək daha məqsədəuyğun olardı. (Müəllif öz əsərini roman-fantaziya adlandırır).

---

[17] Əlişanoğlu, T.Ə. Müstəqillik illəri Azərbaycan ədəbiyyatı: [I hissə: 1990-cı illər] / T.Ə.Əlişanoğlu. – Bakı: Qanun, – 2013. – s. 91.

Kamal Abdullanın “Sehrbazlar dərəsi” əsərinin qəhrəmanlarının zaman və məkanı necə məharətlə idarə etdiyinin bir daha şahidi oluruq. Belə ki, Kamal Abdullanın “Sehrbazlar dərəsi” əsərində adı çəkilən dərə bir kollektiv obraz olaraq təsvir edilir və bu dərəyə gəlmək arzusunda olan coxlu sayda insanların onu nicat, ümid yeri kimi görmələri öz əksini tapmışdır. “Sehrbazlar dərəsi” oxucunu sanki qədim əcdadlarımızın sirrli dünyasına, Şərq nağıllarının əsrarəngiz xəzinəsinə aparır. Müəllifin digər əsərlərində olduğu kimi “Sehrbazlar dərəsi” romanında da nümayiş olunan hadisələr, gözlənilmədən oxucunun qarşısına cıxan çətin döngələr, əqli sonluqların incəlikləri daha çox diqqət cəkəndir.

“Sehrbazlar dərəsi”nin əsas qəhrəmanı Karvanbaşıdır. Bu ad həm peşə növüdür, həm də karvana başçılıq edən adama deyilir. Belə ki, adın işlənməsi artıq oxucuya əsərdə gizli şəkildə gösrərilən zaman və məkan kontekstini təsəvvüründə yaratmağa imkan verir.

Əsərdə olan Təpəgöz, Məmmədqulu və Karvanbaşı – fərqli miqyasa malik olan amansız cəlladlardır. Amma onların arasında olan fərq ondan ibarətdir ki, Təpəgöz və Məmmədqulu insan qanı ilə qidalanırlar, körpələrə belə qıyaraq, öz məkrli niyyətlərini həyata keçirirlər. Yazıq Karvanbaşını isə qisas hissi öz ruhunun cəlladına çevirmişdir və özü özünü zəhərləməyə nail olmuşdur.Belə ki, tərcüməçi Lyudmila Lavrova əsərin “*“daxili strukturunun formasından”* söz açaraq, əsər haqqında fikrini belə ifadə edir: “*Ayrılan cığırlar bağı*”[18]. Bu bağda müəllif oxucunu atasının qatilini axtaran Karvanbaşının ardınca aparır, ona cəllad Məmmədqulunun tarixçəsini nəql edir və ona Allahın işlərinə qarışmamağı məsləhət görür. K.Abdullanın əsərində Karvanbaşı yalnız öz ləyaqəti və ruhunun hüzuru üçün qisasdan əl çəkmir. O, həyatın gözəl olduğu üçün bunu edir.

“*Kamal Abdullanın bu əsərində “mifik “kiçik vətən” surəti ənənəvi və çağdaş anlayışlarda, Şərq-Qərb bədii-fəlsəfi müstəvisində, kökləri Avrasiya motivləri və Dastanla bağlı olan Azərbaycan dünyanın mənzərəsi kontekstində xüsusi milli interpretasiyada anlaşılır… “Sehrbazlar Dərəsi” əsərində Gələcəyin, Keçmişin və*

---

[18] Selçuk, Elçin. Kədərin sirri. Kamal Abdullanın yaradıcılığının özəllikləri / Selçuk Elçin. – Bakı: XXI-YNE, – 2005. – s. 82.

*İndinin mifoloji hadisələrində cərəyan edən kəsişməsini və seyrini Bütövlük estetikası adlandırmaq düzgün olardı*”[19].

K.Abdulla yaradıcılığı özünün qatlarında dərin bir məna daşıyır, öz baxışlarında fəlsəfidir və yazıçı fantastik yaradıcılığında sonsuzdur. K.Abdullanın fəlsəfi baxışları dinidir, ancaq onun fəlsəfəsinin coşub-daşması göylərə tərəf yönəlməyib; onun fəlsəfəsi əbədiliyi təsdiqləmir. Müəllifin fəlsəfəsi bəşəriyyətin, varlıq aləmin və yaşam məqsədlərinin mənasını yer üzündə cənnətin bərqərar edilməsində, başqa sözlə dünyəvi həyatın yaranmasında görür ki, bu quruluşda bəşər övladları öz mənəvi və əxlaqi xüsusiyyətlərini daha bütöv formada aşkarlaya və həyatlarında insansevərliyi, xeyirxahlığı, ədalətli olmağı, həqiqəti başlıca prinsiplər kimi bərqərar etməyi bacarsın.

“Sehrbazlar dərəsi” oxucunu iç dünyasına baş çəkməyə cağırır və bu səbəbdən hamı İlan gədiyinin axtarışındadır. Burdan Görükməz təpənin yaşıllığını keçərək Sehrbazlar dərəsinə enmək mümkündür. Dərəyə axtarış üçün gələn insan axtardığına, verdiyi suallara, tapacağı və sonradan itirə biləcəyi şeylərə görə cox diqqətli olmalıdır. Çünki burada əsas bir həqiqət vardır – Zərdüştilik, Xristianlıq və İslamda da göstərildiyi kimi Xeyir və Şər bir-birinin əksidir. Buna baxmayaraq, həm həyatda, həm də insanın daxilində bu iki qüvvə vəhdət şəkildə birləşir və insanın bu qüvvələrdən hansını seçməsinə artıq özü qərar verir. Belə ki, Kamal Abdulla “Sehrbazlar dərəsi” əsərində mühüm bir məsələni sırf postmodernist vasitələrlə baş verdiyini araşdırmaga çalışır.

Üçüncü fəslin ikinci paraqrafı **“Kamal Abdullanın əsərləri və müəllif mövqeyi”** adlanır. Bu paraqrafda Kamal Abdullanın “Yarımçıq əlyazma” və “Sehrbazlar dərəsi” romanlarında postmodernist roman anlayışı və postmodern romanında müəllif rolunun özünəməxsus şəkildə təqdim olunması qeyd edilir.

Postmodernist əsərdə yazıçı bu və ya digər formada özünü büruzə verir, yazdığı əsərin quruluşu ilə bağlı olaraq fikrinin obyektivləşdirilməsi yolu ilə oxucularla birbaşa diskusiyaya daxil olur və fikrini özü bəyan edir. Əsəri bədii mətnin fraqmentarlığından və postmodernist əsərin qəsdən formalaşdırılan xaotikliyindən

---

[19] Yenə orada, – s. 101.

meydana gələn «kommunikativ uğursuzluğ»a məruz qoymamaq üçün yazıçı öz üzərinə əlavə öhdəliklər götürür. Bununla da, yazıçı maskası K.Abdullanın trilogiyasının məna mərkəzinə və onun nəqletmə üsulunun strukturyaradıcı prinsipinə çevrilir.

K.Abdullanın postmodern təfəkküründə və yaradıcılığında subyekt, obyekt, adresat əlaqələrinin başlıca yeniliyi, bədii dünyanın virtual reallığı "Yarımçıq əlyazma"nı nəinki milli ədəbi yaradıcılığımızın əvvəlki laylarından, eləcə də bir sıra modernist və postmodernist Avropa nasirlərinin yaradıcılığından fərqləndirir və onu postmodern ədəbiyyatın orijinal faktı olaraq meydana gətirir. F.Nitsşenin fikrinə əsaslanaraq demək olar ki, Kamal Abdulla Mətninin baş qəhrəmanı "*insanlarla yaxınlıqdan qaçmır: məhz insanla insan arasında uzanan uzaqlıq, əzəli uzaqlıq onu tənhalığa qovur...*"[20].

Ümumiyyətlə, bədii əsərdə müəllif və müəllif məfhumunu fərqli nöqteyi nəzərdən və yanaşmalardan təhlil etmək mümkündür. Bu da onunla bağlıdır ki, bədii əsərin mətnində müəllifin özünü biruzə verməsi ən müxtəlif xarakter daşıya bilər. Bu təbiidir, çünki müəllif əsərin yaradıcısı olaraq, əsərinin ən müxtəlif aspektlərində özünü biruzə verir. Postmodernist əsərdə isə "müəllif oyunu" baş verir, bu da istənilən kosmoloji modelin ən fundamental və arxaik ziddiyyəti olan "xaos" anlayışının qarşısıalınmaz hadisə kimi başa düşülməsinin nəticəsidir.

Ümimiyyətlə, postmodernist yazıçılar müəyyən mənada qapalı bir aləm yaratamağa cəhd edir və antiutopiyaya böyük maraq göstərir. Nəticədə, postmodern romanda müəllif dünyanın xaotik başlanğıcına və ümumi mənzərəsinə öz mövqeyini bu və ya digər şəkildə bildirməyə bilməz. Postmodern romanlarda olan yaradıcı refleksiya özü də müəllif mövqeyinin bir göstəricidir. Müəllifin baxışları və düşüncələri də bir çox hallarda məhz refleksiya vasitəsi ilə üzə çıxır. Belə hallarda müəllif tənqidini müxtəlif formalarda - disput, müzakirə şəklində nümayiş etdirir və bu da "sətiraltı xarakter" daşıyır.

"Sehrbazlar dərəsi" romanında Kamal Abdulla bir tərəfdən istənilən bir mənzərəni təsvir edir, digər tərəfdən, bir müəllif olaraq

---

[20] Ницше, Ф. Собрание сочинений в 2-х томах / Ф.Ницше. – Москва: Мысль, – т. 1. – 1990. – с. 134.

bunun xəyal olduğunu dərk edir və bu da həyatın daha problemli aspektlərinə toxunan müəllifin postmodern oyunları, əsərlərdə diskursları nəzərə çarpdıran imitasiyasıdır (*oxşatma, bənzətmə*).

Kamal Abdullanın əsərlərində müəllif anlayışı və müəllif rolunun təhlili və həmin anlayışların Boris Yevseyevin əsərlərinə necə təzahür etməsi ilə müqayisəsi məntiqi görünür. Burada ilk növbədə Kamal Abdullanın əsərlərində müəllif anlayışı və müəllif mövqeyi ilə bağlı bir xüsusiyyəti qeyd etmək lazımdır – B.Yevseyevin və K.Abdullanın povest və romanlarında müəllif və müəllif mövqeyi bir qayda olaraq çox dəqiq və aydın şəkildə özünü nümayiş etdirir (postmodernizmdə "müəllifin ölümü" nəzəri müddəasından yaxud düşünülmüş şəkildə müəllifin rolunun azaldılmasından fərqli olaraq). "Müəllifin ölümü" isə rus postmodernizminin ən populyar əlamətlərindən biridir və bu əlamət ilk dəfə Rolan Bartın fəlsəfəsində qeyd edilmişdi. Özünün "Mifologiya" adlı fundamental nəzəri əsərində R.Bart deyilən kateqoriyanın üzərində dayanır[21].

Boris Yevseyevin və Kamal Abdullanın müasir nəsrinin cazibədarlığı ona görə vacib və qiymətlidir ki, o zahirən gözə çarpan effektlərdən uzaqdır. Bunun da bir səbəbi var – hər iki yazıçı realistik tendensiyalarla əlaqəni kəsmir və postmodernizmin mahiyyətini yeni məzmunla zənginləşdirir. Milli mentalitetdən və Avropa nəzəri düşüncə ilə ədəbi-mədəni əlaqələrdən asılı olaraq, Boris Yevseyevin "Romançik" və Kamal Abdullanın "Yarımçıq əlyazma" postmodernist əsərlərində bir oxşar cəhət də nəzərə çarpır. Belə ki, hər iki yazıçının incəsənətdə öz orijinal yolunu və kredosunu bir tərəfdən sosial-mədəni durumun farvaterində (*təsiri altında*) olmaq ehtiyacı, digər tərəfdən yaradıcı ideyaları üçün dayaq nöqtəsinin neomodernist yeniliklərdə axtarmaq istəyi müəyyən edir.

Bununla yanaşı, realizm və postmodernizm arasında həddi Kamal Abdullanın "Yarımçıq əlyazma" əsərində başqa müstəvidə daha dəqiq şəkildə müəyyən etmək mümkündür. "Yarımçıq əlyazma" əsərinin strukturunda yazıçının subyektiv ideyasının, niyyətinin oppozisiyası (*qarşıdurma, ziddiyyət*) nəzərə çarpır. Lakin fərqli cəhətlərə baxmayaraq, K.Abdullanın "Yarımçıq əlyazma" romanının

---

[21] Барт, Р. Избранные работы. Семиотика. Поэтика / Р.Барт. – Москва: Прогресс, – 1989. – с. 117.

əsas ideyaları postmodernist mif-poetikasına sözsüz ki, tam uyğun gəlir. Özündə bir sıra "yad" əlamətləri (mistika, sirlilik, mifik poetika, fraqmentlilik, sitatların qeyri-adi çoxluğu və b.) daxil edən yeni cərəyanı neomodernizm adlandırmaq bəzi tənqidçilərin fikrincə daha məqsədəuyğun olardı.

Göründüyü kimi, Kamal Abdullanın və Boris Yevseyevin yaradıcılığında oxşar cəhətlər mövcuddur, və bununla yanaşı hər iki ədib öz müəllif mövqeyini fərqli şəkildə bildirir. Ondan əlavə, dissertasiyada təqdim edilən təhlil göstərir ki, Boris Yevseyev öz əsərlərində yaxın tarixi keçmişə, siyasi proseslərin təsvirinə üstünlük verdiyi halda, Kamal Abdulla öz yaradıcılığında daha qlobal, bəşəri, fəlsəfi problemlərə müraciət edir.

*Müəllifin bu fəsillə bağlı gəldiyi əsas nəticə və müddəalar qeyd olunan məqalə və konfrans materiallarında dərc olunmuşdur*[22].

**Nəticədə** tədqiqatın əsas müddəaları ümumiləşdirir, şərh edilir. İki postmodernist yazıçının – Kamal Abdullanın və Boris Yevseyevin yaradıcılığının təhlili postmodernizm cərəyanının Azərbaycanda və Rusiyada meydana gəlməsi və təşəkkül tapması haqqında fikri bir daha təsdiq edir və hər iki milli ədəbiyyatda postmodernizmin səciyyəvi xüsusiyyətlərini üzə çıxarmağa imkan yaradır. Həmçinin, "müəllif" və "müəllif mövqeyi" məfhumları, onların xüsusiyyətləri göstərilir və hərtərəfli təhlil olunur.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı əsərlərində əks olunmuşdur:**

1. Садиева, К.М. Авторская субъективность в художественном произведении // XTU-nin aspirantların və gənc tədqiqatçıların XIII Respublika elmi konfransının materialları. – Bakı: – 6-7 mart, – 2009, – s. 243-244.
2. Садиева, К.М. Авторское начало и способы его выражение в русском постмодернизме // ADU-nun doktorantların və gənc

[22] Садиева, К.М. Авторская субъективность в художественном произведении // XTU-nin aspirantların və gənc tədqiqatçıların XIII Respublika elmi konfransının materialları. – Bakı: – 6-7 mart, –2009, – s.243-244.; Садиева, К.М. Постмодернизм как художественная система // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. – Bakı: Mütərcim, – 2012. №4, – s. 186-189.

tədqiqatçılarınn XIV Respublika elmi konfransının materialları. – Bakı: – 4-5 dekabr, – 2010. – s. 212-213.

3. Садиева, К.М. Особенности русского постмодернизма и этапы его развития // – Bakı: Filologiya məsələləri, – 2012. №5, – s. 561-566.
4. Садиева, К.М. Постмодернизм как художественная система // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. – Bakı: Mütərcim, – 2012. №4, – s. 186-189.
5. Sadiyeva, K.M. Postmodernizm-ədəbi fəlsəfi cərəyan kimi // – Bakı: Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. – 2014. №4, – s.144-147.
6. Sadiyeva, K.M. Müasir Qərb ədəbiyyatşünaslıgında və ədəbi tənqiddə postmodernizimlə bagli yeni konsepsiyalar haqqında // Ulu Öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər. Beynəlxalq Elmi konfransın materialları. – Bakı: 3-5 may, – 2016. – s. 346-348.
7. Sadiyeva, K.M. Rus postmodernizminin təkamülünün nəzəri-fəlsəfi təhlili // Ədəbiyyat məcmuəsi. – Bakı: – 2017. XXXI cild, – s. 301-307.
8. Sadiyeva, K.M. Postmodernizmin kulturoloji, fəlsəfi və bədii-mədəni aspektləri // Ədəbiyyat məcmuəsi. – Bakı: – 2017. XXXII cild, – s. 207-213.
9. Садиева, К.М. Характерные особенности русского постмодернизма // Мир науки, культуры, общества. – Горно-Алтайск: – 2018. №1, – с. 419-420.
10. Садиева, К.М. Особенности становления постмодернизма в России. “Artistic interpretation of globalization problems and Contemporary images” Beynəlxalq Elmi konfransının materialları. Özbəkistan, Taşkent, – 9 avqust, – 2018. – s. 363-369.

Dissertasiyanın müdafiəsi ___14___ ___iyun___ 2024-cü il tarixində saat ___16:00___ Bakı Slavyan Universiteti nəzdində fəaliyyət göstərən ED 2.13 Dissertasiya şurasının bazasında BFD 2.13/1 Birdəfəlik dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az 1014, Bakı şəhəri, S.Rüstəm küç., 33.

Dissertasiya ilə Bakı Slavyan Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Bakı Slavyan Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat ___13___ ___may___ 2024-cü ildə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 18.03.2024

Kağızın formatı: A5

Həcm: 40613 işarə

Tiraj: 100 nüsxə